# Prezident İlham Əliyev bütün hədəflərinə nail olur



## Birgə Bəyannamə Azərbaycanın sülh çağırışında olduğunu bir daha göstərdi

**Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-yə səfəri və bu çərçivədə keçirdiyi görüşlər, nəticədə Birgə Bəyannamənin imzalanması Azərbaycan tarixinin qızıl səhifəsidir. Həmçinin "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" iki ölkə münasibətlərinə yeni nəfəs verir.**



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, Vaşinqtonda imzalanan bütün sənədlər Azərbaycanın milli maraqlarına uyğundur: "Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması gözlənilən idi. Çünki Prezident İlham Əliyevin siyasi gedişləri, uğurlu diplomatiyası deməyə əsas verirdi ki, Azərbaycanla Ermənistan arasında münasibətlər mütləq yaxşılaşacaq və sülhə zəmin yaranacaq. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilən görüş, onun şahidliyi ilə imzalanan Birgə Bəyannamə bir daha göstərdi ki, Azərbaycan dünyaya sülh, əmin-amanlıq, təhlükəsizlik çağırışındadır və bu amallara sadiqdir".

Komitə sədri qeyd edib ki, bəyannamədə əksini tapan müddəalar Azərbaycanın bilavasitə nəzərdə tutduğu məsələləri özündə əks etdirir. Təhlükəsizliyin təmin olunması, dövlətlərin sərhədlərinin toxunulmazlığı, suverenliyinin, müstəqilliyinin qorunması, eləcə də Zəngəzur dəhlizinin açılması kimi çox mühüm müddəalar göstərir ki, bu bəyannamədə Prezident İlham Əliyevin fikirləri öz əksini tapıb. Sənəd hər iki dövlətin milli maraqlarına uyğun olmaqla bərabər, həm də Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması baxımından olduqca dəyərlidir. Uzun müddətdir ki, regionda münaqişələr, qarşıdurmalar, müharibələr hökm sürməkdədir. Azərbaycan, Gürcüstan, Ermənistan bu müharibələrdən böyük zərbələr alıb, xalqlar qurbanlar veriblər. Ancaq Azərbaycan 44 günlük Vətən müharibəsində, 23 saatlıq antiterror tədbirlərində qalib gəlməsinə baxmayaraq, ölkə rəhbəri daim sülhə, təhlükəsizliyə, qarşılıqlı münasibətlərə, əməkdaşlığa tərəfdar olduğunu bəyan edib və Ermənistanı bu yolda qətiyyətli addımlar atmağa çağırıb: "Azərbaycanla-Ermənistan arasında imzalanan Birgə Bəyannamə göstərdi ki, Prezident İlham Əliyev öz ideallarına, amallarına sadiqdir. Bəyannamədə Zəngəzur dəhlizinin "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlandırılması, gələcəkdə bu dəhlizin açılması ilə nəqliyyat infrastrukturunun genişləndirilməsi nəinki iki dövlət üçün, eləcə də region və dünya ölkələri üçün çox əhəmiyyətlidir. Ümumilikdə, bu, nəqliyyat imkanlarının artırılması üçün vacib layihədir. Bu görüşlərdə, imzalanma mərasimində ABŞ Prezidenti Donald Tramp hər iki ölkəyə sağlam münasibətlər, qarşılıqlı əməkdaşlıq arzulamaqla bərabər, həm də əlaqələrin genişləndirilməsi məsələlərinə diqqət çəkdi".

Komitə sədri vurğulayıb ki, ABŞ kimi böyük bir dövlətlə münasibətlərin yaxşılaşdırılması, əməkdaşlığın genişləndirilməsi Azərbaycanın gələcək inkşafı üçün vacibdir. Bu, Azərbaycanı bir daha dünyaya tanıtdırmaq, Prezident İlham Əliyevin diplomatik gedişlərini, uğurlarını sübut etmək baxımından dəyərlidir.

Ölkəmizin rəhbəri nəyi necə, nə vaxt etməyi bacarır. Bu görüşlər, imzalanan sənədlər bir daha sübut etdi ki, bu məsələ üzərində ölkə rəhbəri dönə-dönə düşünüb, planlar cızıb və reallıqları nəzərə alaraq, Birgə Bəyannamənin imzalanmasına razılıq verib. Bu gün Azərbaycan xalqı sevinir, öz prezidentinin uğurları ilə, onun diplomatik qələbələri ilə öyünür. Çünki bu qələbələr Azərbaycanı daha aydın sabahlara, xalqımızı xoşbəxt günlərə aparır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan.- 2025.- 12 avqust (№167).- S.5.